
BÜLTEN

Güney Azərbaycan Sivil Düşüncə Platformu

25 April 2026

İran, İsrail, Amerika Savaşı:

Güney Azərbaycandan Baxış




Bombalanan Gerçək

Dr. Teoman Aktan

Amerika/İsrailin "yardım" deyərək uzatdığı əlin kölgesinde, Minab'da bir ibtidai məktəbinüzərinə bombalar yağdı və ən az 170 uşaq və öyrətmən öldürüldü. Bu artıq soyut bir acı deyil; adı olan, yeri olan, zamanı və faili bəlli bir qətliamdır. Əgər o müdaxilə, o saldırı, o sözdə "yardım" zənciri heç qurulmamış olsaydı, o canlar indi həyatda olacaqdı. Saldırı, bir "yanlışlıq" deyildi. Bir "qəza" deyildi.

Bir "hesablama xətası" deyildi. Öldürən bir sistemin, sömürən bir düzənin nəticəsi idi. Bu gün İran toplumunun yaşadıqları, bölgədə yaşanan trajedilərdən qopuq deyil; onların bir parçasıdır. Bu coğrafiyada yaşanan hər sarsıntı, hər yıxım, hər müdaxilə dalğası bir-birindən ayrı hadisələr kimi necə görülə bilər ki?


Minab'dakı o qıyım, qanlı bir müdaxilə zəncirinin, acımasız basqıların, amansız ambarqoların, dışarıdan qurulan dənkləmlərin bir sonucudur. Bu növ saldırılar göydən düşməz; hazırlanar, məşrulaşdırılar və sonra "qaçınılmaz" deyə yedirilər. Dolayısıyla görünməz qılınmağa çalışılan şərri görüb göstərmək gərəkir. Şər, özünü çox vaxt "yaxşı niyyət" kisvəsi altında sunar ve güya "güvənlik" yanlısıdır, "istiqrar" sağlayıcıdır, "insani müdaxilə"çidir. Bu sözdə insani müdaxilə nəticəsində sivillər ölür. Filistində, Suriyədə, Iraqda, bitmək bilməyən işğalların və sürgünlərin içində. Yəməndə ölür, aclıqla və bombalarla birlikdə. Lübnanda ölür, sərhədlərin və kampların arasında. Əfqanistanda ölür, heç bitməyən yerindən edilmələrin ortasında.



Və daha ağrılı olan odur ki, bu ölümlərə sevinən, dağıntını "uğur" kimi sunan, hər faciəni bir "fürsət" kimi görən bir yığın vardır- rəngi bizdən, amma mövqeyi gücün yanında olanlar. Meydanlarda ölümü alqışlayan, ekran qarşısında bombalamalardan zövq alan bir zəlil zehniyət. Zorbalıq təkcə çarəsiz bir xalqa saldırmır ki, gerçəklikdən öz lehinə yonaraq yontalayaraq gerçəyə də saldırır.

Bilənlər bilir ki, bizim bir mücadiləmiz var. Nifrətlə deyil, vicdanla qorunan bir duruş. Bizim məsələmiz fərdi və toplumsal bir vicdanı çətin bir zamanda, şərrin qol gəzdiyi qaranlıq bir dövranda necə ayaqda tutmaqdır.

Kimdir bilməyən ki, gerçəyi kənarlarından yonmaq özü bir cinayətdir. Gerçəyi “dəngə” adına sulandırıb satanlar kimdir? Bombanı “operasyon”, ölümü “itki”, qətliamı “çatışma” deyə verənlər kimlərdir? Hər bir cinayətdə olduğu kimi bu cinayətlərin də bəsbəlli failləri vardır və biz onları tanıyırıq. Çıxar hesabları və ideolojik hesablaşmaları mane olmasa ad-ad sayarıq; şəhərləri, xəstəxanaları necə yerlə-yeksan etdiklərini, sivil insanları necə açıq hədəfə çevirdiklərini, məktəblərin və yaşayış məntəqələrinin necə toplu məzarlara dönüşdürüldüyünü və bunun necə “zərurət” dili ilə örtüldüyünü də bilirik. BBC ilə Iran International kimi platformalarda səsləndirilən, saldırıların yalnız siyasi sistemə bağlı mərkəzləri hədəf aldığı və sivillərin etkilənmədiyi yönündəki iddia, gerçəkliyi ört-basdır edən açıq bir manipulasyondur. Sahədəki tablo bunun tam əksini göstərir.Qurbanları adsızlaşdırmağa yönələn ana axım medyada qabaran mübahisələr də diqqət çəkir. “Əgər bu gün ölməzlərsə, yoxsulluqdan öləcəkdilər” kimi ifadələrlə, ölümü alternativ bir alın yazısı kimi sunurlar. Yoxsulluq və vəhşət içində ölməyi kim bir alın yazısı olaraq bəlləyib bizim insanımıza ki?Biz Türklər gerçəyi doğrayıb “hekayət” deyə önümüzə qoyanları çox gördük. Bilənlər bilir ki, bizim bir mücadiləmiz var. Nifrətlə deyil, vicdanla qorunan bir duruş. Bizim məsələmiz fərdi və toplumsal bir vicdanı çətin bir zamanda, şərrin qol gəzdiyi qaranlıq bir dövranda necə ayaqda tutmaqdır. Bu vicdanın mayası xalqın acısıdır, onun ağrısı ilə dərinləşir, hüznü və kədəri ilə sınanır. Bu vicdan susdurulmamalıdır. (Son)



"Son savaşı kimsə qazanmadı, gələcək savaşı da kimsə qazanmayacaq."

Eleanor Roosevelt



Bülten haqqında:

- Bülten, Güney Azərbaycanın milli məsələlərini mübahisə edir.
- Bülten, gündəm siyasi ictimai olaylara Güney Azərbaycan milli hərəkətinin gözü ilə baxmağa çalışır.
- Bültenin hər nömrəsində özəl bir başlıq müxtəlif açılardan mübahisə edilir.
- Bülten yazarlar heyeti terefinden idare olunur


Türkcənin editörü: L. Cavanşir
İngiliscənin editörü: T. Bozkurt
Dizayn işləri: S. Purmusavi
Email: **bulten.sdp@gmail.com**

Demək ki: Biz “Bir Millət” Deyilmişik!

Dr. Toğrul Atabay

“Ancaq şeytan bir insan, küllərinin üzərində höküm sürə bilsin deyə öz millətini odlara sürükləyər.”
— Sun Tzu (Savaş Sənəti)*

2026 ilinin 2-ci ayında başlayan ABD-İsrail ilə İran arasındakı savaş məsələsinə yurdiçində də yurddışında da “İranlı” rəsmi kimliyi daşıyan insanlar və çevrələr çox çeşidli, bir-birinə tərs və çəlişkili təpkilər verdi. Kimiləri “zil taxıb” oynarkən, kimiləri “vətən-millət” ədəbiyyatı ilə qarşı çıxdı. Savaşın başlanğıc günlərində mən tədavi üçün getdiyim ölkədən geri gələrkən məni havalimanına çatdıran və birçox taksiçi kimi “dolandıran” Vandakı taksiçi dayı daxı İranlıların ölkələrinə belə saldırılmasını sevinc və minnətlə qarşılamasını sindirə bilmədiyini, ölkəsinə saldıran yad gücləri gül-çiçəklə qarşılayan bu millətə şaşırdığını acıqla dilə gətirmişdi. Yad və imperyalist güclərin ölkəyə demokrasi və xoşbəxtlik gətirməyəcəyini qarşılaşdığım başqa Türkiyəliyurddaşlar da həyəcanla dilə gətirir, özəlliklə yurddışındakı İranlıların ABD və İsrail seviciliyindən heyrətlərini dışa vururdular.
Bir neçə gün sonra bir tarix xocasının iftar dəvətində söhbətimizin “aperativ”i və məclisimizin “noğul”u isə ilk intibasının Türkiyədə sürəkli dilləndirilən o “kadim devlet” ve “köklü Pers medeniyeti” alğısının necə yerlə bir olduğu idi. Savaş çığırtqanlarına gəlincə, —məzur buyurun, mən sözü köçürmə suçlusuyam— bu qədər “puştluk” və “pezevenklik” gözləmirmişlər!
Yurddışında —50 ildir demokratik ölkədə yaşayıb demokrasi nemətlərindən yararlandığı halda yenə qarşı oldğu “rejim” kimi hərbə-kərbə kəsən— ölkənin ölüm-dirim məsələsi üzərində tərsləşib bir-birini yırtan Pəhləviçi-Mücâhid, savaşa göz qırpan Nobel Barış ödüllü, yanan Əmir Bazarında yaylıq güdən siyasi təşkilatcıqlar, uşaq ölümünü belə görməzdən gələn “qancıl”lar, “sâhil-i âfiyət”də oturub xalqın yeniyetmələrini ölümə çağıran və devrim dəyirmanına ucuz və bol-bol qan arzulayan sürgündəki müxalifət toplumsal çürümüşlüyün ürəyə-böyrəyə çatdığının göstəricisidir.
Fars diyasporası arenanada tamaşaya oturan ağzıköpüklü Romalı seçkinlər kimi qladiyatorları öldürüşməyə çağırıb bağırışır. Öznəlliyini (âmiliyyətini) itirən irâdəsiz, keyişmiş toplum bu səfər Sonçağ (âxirüzzaman) qurtarıcısını günbatandan gözləyir...





Məni illərdir düşündürən isə bu yüzillik calaq ulus-dövlət (doğrusu dövlət-ulus) və “tək millət - tək bayraq” politikasının mayasının hələ də tutmadığı məsələsi idi. Qısacası ölkənin yazğısını bəlirləyəcək bu qədər aydın bir olayda yurddaşlar bunca çəlişkili, bunca dəyişik, bunca qarşı-qarşıya, bunca tərs qonumlarda necə yer alabilir? Demək ki, dövlətin kökləşmiş, soylu və “kadim” olduğu imgəsi və sözdə “Pers medeniyeti”nin sözdə köklülüyü və ardıcıllığı xülyasının yerlə bir olması dışında, atılan fırlantıların (pərtâbə) yaratdığı ilk toplusal təxribat şudur:
- Biz (bu coğrafiyada zorlama qədərlə bir arada yaşayan yurddaşlar, bu biçimsiz, ortaq özəlliksiz

yığınlar, bu bir-birindən və öz içində də qırıq-qopuq etnik qruplar) min batmanlıq İranilik ilə Farsdillilik və Şiilik tutqalına baxmayaraq bir kərə BİR (eyni) ulus deyilik.
- Biz, hətta keçmişdən eyni yazğını paylaşan və gələcəkdə birgə yaşayış ülküsü olan toplum anlamında bir "ULUS" (millət) belə deyilik!
Ölkəsinə və ölkələrə saldıranların bayraqlarıyla halay çəkən ağzıpozuq diyaspora ilandan qurtulmaq üçün əjdərhaya sarılır. Özü də nə sevgi ilə, nə coşqu ilə! Göygöz-sarışın sevici, özünü də bu sarışın üstün soylularla qohum sanan balıq yaddaşlılar 120 illik özgürlük, ədalət və bağımsızlıq mücâdilələrinin işbu sömürgəçi imperyalist güclərin müdâxiləsi ilə ərəmik və sonsuz qaldığını büsbütün unudub. Doğma ana dilində təhsil kimi ən düşük istəyi belə rəvâ görməyib dillənəni "təcziyə-tələb" deyə damğalayan, kimliyini önə çıxaran bir Türkə "Moğolistana qayıdın!" deyə qeyrət damarları şişən və "işğalçı Ərəb dölü" deyə adlandırdığı rejimi belə "bölücü"lərə qarşı ən sərt qarşılq verməyə çağıran ağzıköpüklü Paniranist/İranşəhri camaat nədənsə Amerika-İsrail saldırısını və olası işğalını qurtarıcılıq və özgürləşdiricilik olaraq görür və göstərir. II Dünya Savaşı sırasında, 1944-də ölkə İngilis və Sovet işğalı altında ikən və İngilislərcə taxta çıxarılan ilk şahları ölkədən postalanmışkən bir direniş mahnısı olaraq bəstəlnmiş olan "Ey İran Ey Mərz-i Pür-gühər" marşı ilə Ağevin qarşısında qəyyumlarına quyruq bulayan şahçılar özlərini varolmayan millətin ultra milliyyətçisi sayır (O illərdə Azərbaycan qəzetinin bir sayısında bu marş ancaq torpaqdan söz etdiyi, üzərindəki insana yer verilmədiyi üçün yaman ələşdirilmişdi). Bir yanda Xaçlı Savaşına yüyürənlər, qarşıda afyonlu Həsən Səbbah ordusu, bir yanda isə zorxana çuxurunun səkilərində oturub "Güpsə!" deyə coçquyla alqış tutan şəhnaməçilər. Bir daha isbatlanır: İrandakı Türk/Azərbycan məsələsi etnik məsələ deyil, uluslaşma məsləsidir. Türk-Fars ayrımı etnik və antropolojik deyil, sosyolojikdir. Pəhləvi çevrəsi Farsçı şovenistlər qismi iqtidarı ələ keçirərsə dargörüşlü Fars milliyətçiliyi yüzillik "İran ulusu" projəsinin tabutuna son çivini çaxmış olacaqdır. Çünkü İranı özdə də, sözdə də Farsistana məhdudlaşdıracaqdır. İronik olan, qara mizah isə şudur (İttilaat sorğusunda da sorğuçulara zimnən demişdim):
Bu dövlətin düz yüz ildən bəri ən ögey övlad kimi davrandığı Türklər mətânətli davranan tək toplum olaraq alqışa lâyiqdir. Nə biriləri kimi yadellilərin piyadə qoşunluğuna soyundular, nə yadelli zorbaların savaşla demokrasi ixrâcına alqış tutdular, nə "üstün soydan" və "üstün gendən" olan o "kimsəliksiz" vələdin ardına düşdülər. Susqundurlar deyə yaman yedilər, səssizdirlər deyə satqın adlandılar və onların adına üstün soylulardan yaman utanmış olan manqurdlar nə qədər qışqırtmğa çalışsa da oyuna gəlmədilər. Dilsiz-başsız buraxdıqları bu "əpsəm" (xâmuş) toplum cınqırını çıxarmadı. Nə gözləntisini itirdiyi ögey ataya çəmkirib çımxırdı, nə qəniminin üzərinə sovrulan bombalara qarşı sevinclə çığlıq atdı. Yerini-yurdunu buraxıb qaçışmadı. Nə varolmamış bir keçmişin şəhvətiylə əsrimiş nağılçılara uydu, nə suyun önünü kəsən və hər gün gənclərin ətindən bəslənən əjdərhanın yanında yer aldı. Uluslaşmanın başanğıcı mitolojik keçmişin qaranlqlarında uydurulmuş soy birliyi deyil, toplumun yazğısına dâir yaranan ortaqlaşa sağduyudur. (Son)

---

* MÖ VI yüzildə yaşamış Çinli bir strateji analist, düşünür və yazıçı. Ən çox savaş teorisi üzərinə yazdığı The Art of War (Savaş Onatı) adlı kitabıyla tanınar.



Alternativsiz Seçimlər: Media Agendası Necə Milləti Çərçivələndirməyə Çalışır

Sara Tampu

İranda yaşayan insanlar uzun müddətdir informasiya blokadası şəraitindədir. Rejim açıq internetə çıxışı kəsib, Starlink kimi alətləri isə cinayət kateqoriyasına salıb. Nəticədə informasiya mühiti iki mənbəyə endirilmişdir: Sepah nəzarətindəki dövlət televiziyası və diaspor ilə xarici maraqlar tərəfindən maliyyələşdirilən peyk kanalları. Müqayisə etmək, yoxlamaq və ya alternativ fikirlərlə qarşılaşmaq imkanı olmadıqda, televiziya sadə bir xəbər mənbəyi olmaqdan çıxıb yeganə mövcud reallığa çevrilir. Bu isə propaganda yayılması üçün əlverişli bir zəmin yaradır.

Bu problem yeni deyil. 1950-ci illərin Amerikasında, MakKarti dövründə “Amerika azadlığı” ilə “Sovet kommunizmi” arasındakı ikiliyə sual verən hərkəs kommunist simpatizanı kimi damğalanırdı; həqiqi inanclarına görə yox, sadəcə bir tərəfi tam dəstəkləmədiyi üçün. Neytrallıq xəyanətlə eyniləşdirilirdi. 11 sentyabr 2001-dən sonra eyni mexanizm yenidən işə düşdü. Prezident Buş dünyaya dedi: “Ya bizimləsiniz, ya da terrorçularla.” Bu bir cümlə bütün nüansları aradan qaldırdı; müəyyən bir müharibəyə qarşı çıxmaq, mülki əhali üçün narahat olmaq, strategiyaya dair suallar vermək, bütün bunlar tək bir etiketə endirilib düşmənlıq sayıldı.
İran diaspor mediası indi eyni strukturu tətbiq edir. Çox insanın hiss etdiyi odur ki, sanki ya şah tərəfdarı olmalısan, ya da Sepah tərəfdarı. Müharibəyə qarşı çıxsanız, rejim dəstəkçisi damğası vurulur. Eyni Halda Pəhləvi narrativini tənqid edən, avtomat rejim tərəfdarı kimi göstərilir. Kompleks insan düşüncəsinin yaşadığı aralıq məkan isə sanki mövcud deyilmiş kimi təsvir olunur. Bu bir müzakirə formatı deyil, əhalinin siyasi kimliyini çərçivələmə yoluyla idarə etmə mexanizmidir.
Siyasi qütbləşmə üzrə aparılan tədqiqatlar göstərir ki, ikili çərçivələmə insanları inandırmaqla deyil, yormaqla işləyir. Hər fikir riskli bir etiketə çevrildiyində insanlar mövqelərini açıq bildirməkdən çəkinməyə başlayırlar. Cəzadan qaçmaq üçün fikirlərinə ən yaxın mövcud kimliyi qəbul edirlər.



İran diaspor mediası indi eyni strukturu tətbiq edir. Çox insanın hiss etdiyi odur ki, sanki ya şah tərəfdarı olmalısan, ya da Sepah tərəfdarı. Müharibəyə qarşı çıxsanız, rejim dəstəkçisi damğası vurulur.

Üstəlik, bu yanaşma bir zərurət kimi qəbul edildikdən sonra insan onu özü üçün əsaslandırmağa və öz reallığına çevirməyə başlayır. Hər hansı real hərəkat üçün vacib olan yeni ideyalar isə təcrid və cəza qorxusundan yaranmır. Güney Azərbaycan icması türkdilli kanallara çıxışı sayəsində üçüncü bir informasiya mənbəyinə sahib olduğu üçün müəyyən qorunma əldə edib. Lakin bu qoruma zəifdir. Uzun müddətli blokada hamını həssas vəziyyətdə qoyur, çünki mövcud İran mediasının hər iki tərəfinin öz gündəmi var. Hətta yaxın zamanda hər iki media tərəfi etnik simvollardan istifadə edərək azlıqların hərəkatını da öz çərçivələrinə daxil etməyə çalışıb. Dövlət televiziyasının azərbaycanlılarla ana dilində, öz gündəmlərinə uyğun fikirləri ehtiva edən müsahibələr aparması buna bir misaldır. Pəhləvilərin azərbaycanlıları təmsil etmək üçün papaq taxmış Lohrasb Sasaniferi dəvət etməsi isə digər nümunədir. Bu cəhdlər digər hərəkatları da həmin ikilik içinə salmaq üçün atılmış addımlardır və azlıqların real fikirlərini əks etdirmir, yalnız klişe simvollar vasitəsilə auditoriya cəlb etməyə xidmət edir.
Bununla belə, ümid qırılmayıb. İkili çərçivələməyə qarşı aparılan tədqiqatlar göstərir ki, ən effektiv vasitələrdən biri bu mexanizmi baş verməzdən əvvəl adlandırmaqdır. "İnokulasiya nəzəriyyəsi" üzrə tədqiqatlar sübut edir ki, insanlar manipulyasiyanın necə işlədiyini əvvəlcədən bildikdə ona qarşı daha davamlı olurlar. Şüurun özü qoruyucu bir işlev daşıyır. Tədqiqatlar həmçinin göstərir ki, alternativ narrativlər əhəmiyyət kəsb edir: etibarlı şəxslər açıq şəkildə bu ikilik çərçivəsini rədd edib üçüncü bir mövqe tutduqda, başqalarına da eyni imkanı vermiş

olurlar. Yəni, Bütün media sistemini dağıtmağa ehtiyac yoxdur. Kifayət qədər insanın açıq şəkildə bunu deməsi yeterlidir: mən sizin təklif etdiyiniz hər iki variantı rədd edirəm. İraq müharibəsi bu baxımdan düşündürücü bir nümunədir. Bu muharibədə də eyni məntiq əsas götürülmüşdü: ya dəstəklə, ya da terrorçuların tərəfindəsən. Müxalifət xəyanət kimi göstərilmişdi. Bu gün isə həmin müharibə, Amerika ictimaiyyəti də daxil olmaqla, beynəlxalq hüququn pozuntusu və humanitar fəlakət kimi dəyərləndirilir. O zaman buna qarşı çıxanlar terrorçuları dəstəkləmirdi; sadəcə ikili çərçivə onları belə göstərirdi. Eyni prinsip burada da keçərlidir. Mülki itkilərə və hava bombardmanına qarşı çıxmaq ideoloji mənada bir siyasi mövqe deyil; bu, tanınmış insan hüquqları kateqoriyasına aiddir. Bunun əksini iddia edən ikili çərçivə isə sənədləşdirilmiş süni bir quruluşdur. Hətta indiki atəşkəsdən sonra belə hər iki tərəf son hadisələrdən yararlanaraq bu çərçivələmə cəhdlərini davam etdirir. Tarix göstərir ki, bu mexanizmlərə məruz qalan cəmiyyətlər gücsüz deyil. Bu quruluşu adlandırmaq birinci addımdır. Yalnız iki kimlik təqdim edən media mühiti informasiya vermir, idarə edir. Bu qədər geniş imkanlara və maliyyəyə sahib bir mediaya qarşı durmaq asan deyil; lakin cəmiyyətin bu taktikalardan xəbərdar olması və aktivistlər tərəfindən yeni kanalların qurulması, bu ikili çərçivəyə qarşı dayanıqlılıq yaratmaqda ən təsirli strategiya olaraq qalır. (Son)





İnşa Edilməyən İnsan Kapasitəsi; İnşa Edilməyən Dövlətdir

Fəramərz Əsğərzadə

Onilliklər boyu Azərbaycanla bağlı müzakirələr əsasən sərhədlər və coğrafiya üzərində, bəzən bəsit, bəzən isə kəskin bir münaqişə mövzusu kimi aparılmışdır. Çoxumuz bu məsələni xəritələrin yenidən çəkilməsi və ya federal quruluşların qurulması ilə həll ediləcək bir problem kimi gördük; insanların inancları, tutumları, dəyərləri və kimliklərindən daha çox sərhəd xətlərinin dəyişdirilməsinə kökləndik. Halbuki bir millət cəmiyyətə sadəcə "yüklənə biləcək" bir proqram və ya USB deyil ki, istədiyiniz mahnıları yazasınız və insanlar sizin musiqinizlə rəqs etsinlər; əksinə, toplum aşağıdan yuxarıya doğru yetişdirilməli olan canlı bir orqanizmdir. Görüləcək iş, mövcud gerçəklik ilə tərcih edilən vizyon arasındakı fərqi qapatmaq üçün yürüdülən bir prosesdir. Bu vizyon xalqın içində gizlidir və atalarımızdan miras qalan kültürün və yaşanan zorluqların DNA-sında daşınır.

Siyasi xəritə yalnız coğrafiyanı göstərə bilər, ancaq yalnız dərin köklü və yenilikçi bir kültür uzunömürlü və dayanıqlı bir yurd inşa edə bilər.

Tarix, Masada və Yavne hekayəsi üzərindən bu iki yol haqqında bizə çarpıcı bir dərs verir. İki min il öncə, Romanın işğalı zamanı bir qrup yəhudi qılınc yolunu seçdi. Onlar səhrada yerləşən Masada qalasına çəkilərək qəhrəmancasına, ancaq stratejik davamlılıq baxımından nəticəsiz bir dirənişə girdilər. Romalılar surları aşdıqda, əsir düşmək yerinə toplu intiharı seçdilər. Qazana bilməyəcəkləri bir savaşa girdilər və geridə heç bir miras qoymadılar. Bu

hadisə direniş simvolu kimi xatırlansa da, eyni zamanda bir toplumun yaşamaq və davam etmək qabiliyyətini itirdiyi anı da göstərir. Burada əsas dərs odur ki, hər üsyan avtomatik olaraq gələcək yaratmır; bəzən üsyan yalnız itkiyi dərinləşdirir. Eyni zamanda, Yohanan adlı bir xaxam fərqli bir yol seçdi. O, qılıncın artıq keçərli olmadığını gördü və romalılardan bir qala deyil, bir məktəb istədi. Bu seçim bir "geri çəkilmə" deyil, əksinə, institusional davamlılıq qurmaq üçün yeni bir strategiya idi. Orada alimlər yüz illər boyunca ənənələrindən və kimliklərindən nəyi qoruyacaqlarını, nəyi tərk edəcəklərini və hansı yenilikləri yaradacaqlarını müzakirə etdilər. Onlar fiziki bir faciəni iki min il davam edən sarsılmaz bir sosial quruluşa çevirdilər. Onlar bir həqiqəti anladılar: heç bir hərəkat insanların təşkilatlanma və adaptasiya sürətindən daha sürətli böyüyə bilməz. Bu, böyük səbir gərəkdirir, çünki yalnız insanları səfərbər edə bildiyiniz sürətdə irəliləyə bilərsiniz. Ona görə əsas məsələ tələsmək deyil, insanı daşıyan quruluşlar yaratmaqdır.

Bugünkü reallıqda da eyni məntiq keçərlidir: bir diktatorluğu başqa bir sərhəd forması ilə dəyişmək insanımıza rifah və sayğınlıq gətirmir. Bizim ehtiyacımız sadəcə siyasi dəyişiklik deyil, eyni zamanda bilincli yurtdaşlıq və institusional kapasite quruculuğudur. Bu da Azərbaycan insanının kimlik DNA-sına sayğı duyaraq, kültürümüzdə və kimliyimizdə hansı müsbət nümunələri qoruyub gələcəyə daşımalı olduğumuzu, irəliləməmizin qarşısını alan nələri tərk etməli olduğumuzu və yeni kapasitələr yaratmaq üçün hansı müzakirə və mücadiləni aparmalı olduğumuzu ortaya qoyur.

Eyni zamanda kimlik rivayətinin yanında Azərbaycan insanının rifahını təmin etmək üçün eşzamanlı mübarizələrə və yeni kapasitələrə ehtiyacımız var. Bugünkü şərtlərdə siyasi otoritenin yoxluğu bu sahələri birbaşa dövlət səviyyəsində inşa etməyə imkan vermir. Bu səbəbdən xəritədən və yeni sərhəddən öncə kapasite qurmaq gərəkdir; siyasi, sosial, iqtisadi və beynəlxalq sahələrdə lazım olan bacarıqları böyük quruluşlarda deyil, daha çox cəmiyyətin içində, kiçik ölçəkdə məşq edərək gücləndirməliyik. Burada əsas məsələ yalnız qurmaq deyil, həm də kimin qurduğu və necə qurduğu sualıdır; yəni bu proses diaspora, yerli şəbəkələr və intellektual çevrələrin həmahəng iştirakı ilə aşağıdan yuxarıya doğru formalaşmalıdır. Bu sahələrdə "əzələmiz" hələ bu yükü daşıyacaq qədər güclü deyil və məhz buna görə onu aşağıdan yuxarıya doğru inşa etmək zəruridir. Bu kapasitelər bir gecədə yaranmaz; onlar kimlik hekayəmizə sayğı duyaraq, mərhələli şəkildə, həm xalqın problemin bir parçası olduğunu hiss edərək, həm də bu prosesin aktiv iştirakçısına çevrilərək, formalaşmalıdır. Xalqın kimliyini radikal şəkildə yenidən yazmağa çalışmaqdan çəkinməliyik; çünki bu, sosial direniş və lüzumsuz allergiya yaradır. Dəyişiklik cəmiyyətin öz içində baş verməlidir. İnsanlar özlərini həm problemin, həm də həllin bir parçası kimi görməlidirlər. Kimlik hekayəsinə sayğı duyulduqda, insanlar yeni bir dayatma obyektinə deyil, dönüşümün aktiv



iştirakçılarına çevrilər. Yaradılacaq qurumların və bacarıqların inşası bəlkə də onilliklər çəkəcək, ancaq xalqın sayğınlığa və rifaha çatması üçün başqa qısa yol yoxdur. Sonuc olaraq, liderlik və insan kapasitəsi yaratmaq, həyatda qalma cəsarəti göstərmək və çətin şərtlərdə çətin həqiqətlərlə üzləşərək yola çıxdığınız insanlar və mənsub olduğunuz xalqla hərarətli, amma ölçülü müzakirələr aparmaqdır. Əkmədiyimiz bir zəmindən məhsul gözləmək vərdişini buraxmalı və "iç inşamızı" üzərimizə götürməliyik. Əgər xalqın iç dünyasını inşa etsək, aradığımız siyasi otoritə də bunun doğal və təbii bir nəticəsi olaraq ortaya çıxacaqdır. Bu çətin dövrləri aşmaq üçün bizə bir qala deyil, bir məktəb lazımdır. Siyasi xəritə yalnız coğrafiyanı göstərə bilər, ancaq yalnız dərin köklü və yenilikçi bir kültür uzunömürlü və dayanıqlı bir yurd inşa edə bilər. (Son)




Savaşın kölgəsində:

İnsan həyatı, toplum və gələcək üzərinə

Dr. Lalə Cavanşir

Bu gün İrandakı savaş haqqında danışanda, onu sadəcə bir hərbi qarşıdurma kimi görmək artıq mümkün deyil. Amerika–İsrail–İran savaşı başlanğıcda "nöqtəzəni" və ya "nöqtə atışı" kimi təqdim olunsa da, qısa zamanda gördük ki, savaşın təbiəti buna sığmaz. Savaşın ilk mərhələsində siyasi hakimiyyətin öndə gələn adamları və nizami altyapılar (infrastruktur) hədəf alındı. Daha sonra enerji, neft və elektrik kimi həyati altyapılar vurulmağa başlandı. Bu prosesin məntiqi nəticəsi olaraq savaşın birbaşa insan həyatını alt-üst etdiyinə şahid olduq. Belə getsə, artıq evlər, iş yerləri və gündəlik həyatın təbii ritmi təhlükə altındadır. Bu da o deməkdir ki, "yalnız müəyyən hədəflər vurulur" fikri gerçəkliklə və ortaya çıxan nəticələrlə uyğunlaşmır. Savaşların təsiri yalnız fiziki dağıntılarla məhdudlaşmaz. Əksinə, ən dərin təsir insan həyatında baş verər və xüsusilə uzun müddətdə daha dərin nəticələr doğurar. Məsələn, gündəlik həyatın sabitliyi pozular. İnsanlar işlərini itirər, təhsil yarımçıq qalar, maariflənmə düşüşə keçər və gələcək planları qeyri-müəyyənlik içində dağılıb yox olar. Bu vəziyyət insanları uzunmüddətli düşünməkdən uzaqlaşdıraraq, onları yalnız gündəlik yaşam uğrunda mübarizəyə məcbur edər. Belə bir şəraitdə cəmiyyətin intellektual və siyasi həyatı da zəifləyər; insanlar artıq ictimai və siyasi məsələlər üzərinə düşünməyə imkan tapa bilməzlər. Toplum "həyatda qalma" və ya "survival" vəziyyətinə keçər, təhsil və maariflənmə zəifləyər və təhlükəsizlik hissi azalar. Savaş eyni zamanda qorxu və güvənsizlik mühiti yaradar. Bu güvənsiz mühitdə sosial münasibətlər dəyişər və insanlar arasında etimad azalar. Beləliklə, toplum içində parçalanmalar dərinləşər. Bu parçalanma yalnız sosial səviyyədə yox, siyasi səviyyədə də özünü göstərər. Bunun nümunələrinə İranlı müxalif qruplar içində yaranan fərqli mövqelərə baxaraq rast gəlmək mümkündür. Məsələn, bir qrup savaşın müəyyən siyasi nəticələr verəcəyini düşünərək onu dəstəkləyir, digər qrup isə insan həyatının bu şəkildə risk altına atılmasını qəbul etmir. Beləliklə, savaş yalnız dövlət və toplum arasında yox, toplumun öz içində də yeni sərhədlər yaradır. Siyasi baxımdan isə savaş çox zaman gözlənilənin əksinə olaraq radikal və sərt qüvvələri və hərəkatları gücləndirir. Hakimiyyət "təhlükəsizlik" diskursu üzərindən daha da sərtləşir və toplum üzərində nəzarəti artırır. Bu isə demokratik imkanların daralmasına gətirib çıxarır. Bu məsələ yalnız bu savaşın bir tərəfi olan İran üçün keçərli deyil, İsrail və Amerika üçün də keçərlidir. Məsələn, son günlərdə İsraildə yəhudi olmayan İsrailli məhkumlara edam hökmü veriləbiləcəyi qanunu normal şəraitdə çox çətin qəbul edilərdi, amma savaş şəraitində həm həyata keçdi, həm də qorxu və təhlükə içində yaşayan xalqın bəlli kəsimlərindən dəstək belə qazandı. Bu prosesdə ən çox zərər görənlər isə həmişə olduğu kimi ən zəif qruplardır. Ümumən savaşın ağır yükünü qadınlar, uşaqlar, yaşlılar və iqtisadi baxımdan kənarda qalanlar daşıyır. Bu da o deməkdir ki, savaşlar mövcud bərabərsizlikləri daha da dərinləşdirərək yoxsulları daha da yoxsullaşdırır, sosial



savaş bir çox şeyi dəyişdirəcək və İranda yaşayan milli və etnik qruplar üçün bəzən yeni imkanlar yaradacaq, bəzən də mövcud bərabərsizlikləri daha da dərinləşdirəcək. Bu şəraitdə Güney azərbaycanlılar imkanlardan necə faydalana bilər?



müdafiə imkanlarını azaldır və həyat şərtlərini ağırlaşdırır. Bütün bunlar yaşanarkən, bəzi iqtisadi və siyasi qruplar isə bu vəziyyətdən fayda əldə etməyə və güclənməyə başlayır. Həm tarixi təcrübə, həm də günümüzdə İranda yaşanan şərait göstərir ki, böhran müəyyən qrupları və qurumları güclü iqtisadi aktorlara çevirə bilir. Məsələn, İranda sanksiyalar nəticəsində bəzi qurumların, xüsusilə Sepah kimi dövlətin və toplumun bütün qatlarına sızan strukturların iqtisadi baxımdan güclənməsi bu dinamizmin açıq nümunəsidir. Yəni iqtisadiyyatın çarxını fırladan qurumlar normal şəraitdə bir çox fərqli aktorun iştirakı ilə idarə olunma imkanına sahib ikən, sadəcə Sepah kimi təşkilatların qarmaşıq və dolayı iştirakı ilə idarə oluna bilir. Sadəcə onlar bəlli qaynaqları əldə edib tətbiq olunan sanksiyaları aşa biliblər.

Bu bağlamda Güney Azərbaycanın vəziyyətinə xüsusi diqqət yetirmək lazımdır. Çünki savaş və böhran şəraitində etnik və mədəni fərqlilik çox zaman "təhlükə" kimi göstərilə bilər. Bu da dil, mədəniyyət və kimlik üzərinə təzyiqin artmasına yol açar. Nəticədə bu günə qədər az da olsa əldə etdiyi ictimai görünürlüyü də itirə və geriyə gedə bilər. Eyni zamanda iqtisadi və sosial qeyri-müəyyənlik bölgədə köç, işsizlik və sosial gərginlikləri daha da artırar. Belə bir şəraitdə Güney Azərbaycan həm struktur zəifliklərin, həm də siyasi diskursun təsiri altında daha həssas bir mövqeyə düşə bilər. Bununla yanaşı, hər bir böhran müəyyən imkanlar da yaradır. Məsələn, təşkilatlanma uğrundakı çabalar, stratejik yanaşmaya duyulan ehtiyac və təhlükələrdən qorunmaq üçün gerçəkçi hərəkatların və baxışların ortaya çıxması savaş şəraitində üzə çıxan fikri və praktik imkanlardır. Bu da o deməkdir ki, müxtəlif senarilər üçün hazırlıq aparmaq ehtiyacı yaranır. Məsələn, Güney Azərbaycanda torpaqları müxtəlif terror dəstələrindən qorumaq, ən pis və ağır vəziyyət, ya da ən yaxşı senarilər



üçün düşünərək hazırlanmaq və iş birliyi içində planlar qurmaq şəraitin gətirdiyi bir zərurət kimi qarşımıza çıxır. Çünki tarixi təcrübə göstərir ki, toplumsal və milli məsələlərdə ayıqlıq və planlı olmaq millətlərin hər zaman uduzan tərəfdə olmasının qarşısını alan əsas amillərdəndir. Nəticə olaraq demək olar ki, savaşlar yalnız coğrafi sərhədləri yox, insan həyatını, sosial münasibətləri və gələcək imkanlarını da yenidən formalaşdırır. İrandakı qarşıdurma da bu baxımdan yalnız bu günün yox, gələcəyin də necə formalaşacağını müəyyən edir. Bu mənada Güney Azərbaycanın aydınları, siyasi fəalları və bu millətin taleyinin necə olacağını düşünən insanların diqqət etməsi gərəkən önəmli məsələlərdən biri də budur: savaş bir çox şeyi dəyişdirəcək və İranda yaşayan milli və etnik qruplar üçün bəzən yeni imkanlar yaradacaq, bəzən də mövcud bərabərsizlikləri daha da dərinləşdirəcək. Bu şəraitdə Güney azərbaycanlılar imkanlardan necə faydalana bilər? Dərinləşən böhranlardan ən az zərərlə necə çıxa bilər? (Son)





Özünü Tanımayan Hərəkat Özgəyə Xidmət Edər

Türkan Bozkurt

İsrail və Amerikanın İrana qarşı başlatdığı savaş Güney Azərbaycan üçün bir həqiqəti daha aydın göstərdi: Dışarıya mütəmərkiz olmaq! Bizim ən dərin problemimiz budur ki, biz çox vaxt özümüzdən uzaqlaşıb özgənin içində danışmağa başlayırıq. Məsələlərə öz olduğumuz nöqtədən və öz açımızdan baxmırıq. Öz dərdimizi, öz siyasi ehtiyacımızı, öz tarixi yaddaşımızı mərkəzə qoymuruq. Nəticədə isə Güney Azərbaycan uğrunda danışdığını düşünən bir çox insan belə, əslində Güney Azərbaycanın deyil, özgənin dilini təkrarlayır, özgənin öncəliklərini daşıyır, özgənin çərçivəsində hərəkət edir.

Uzun zamandır müxtəlif maskalar altında danışan, yazan və mövqe bildirən insanların gerçək üzü görünməyə başlamışdır. Burada işlətdiyim "üz" və "maska" sözləri hərfi mənada deyil. Bu, Frantz Fanonun Qara Dəri, Ağ Maskalar (Black Skin, White Masks) əsərində ortaya qoyduğu düşüncəyə işarədir. Fanon müşahidə edir ki, istismar yalnız torpaq, dil və siyasət üzərində qurulmur. İstismar eyni zamanda insanın özünü necə gördüyünə də sirayət edir. İnsanlar daxilən də özgənin ölçüləri ilə düşünməyə başlayır. "Güney Azərbaycan sömürülür, istismar altındadır" demək asandır, çətin olan bu istismarın nəticələrini özümüzdə tapmaq və onlardan arınmaqdır. Toplumlar zamanla özlərinə dominant mərkəzin gözü ilə baxmağa başlayırlar və bu baxış özünə qarşı utanc, öz kimliyindən uzaqlaşma, özünü daim müdafiə etmək məcburiyyəti və özgənin qəbuluna ehtiyac yaradır. İnsan özünü olduğu kimi deyil, necə görünmək istənildiyi kimi qurmağa çalışır. Buna görə də Güney Azərbaycanlılar özünü daim müdafiə mövqeyində tapır. Etiraz etsə, separatçı adlandırılır. Səssiz qalsa, qorxaq sayılır. Hüquq tələb etsə, təhlükə kimi təqdim olunur. Ehtiyatlı davransa, iradəsiz görünür. Yəni nə edirsə etsin, onu dəyərləndirən ölçü özü olmur. Ölçü yenə özgənin ona biçdiyi rol olur. Bu gün Milli Hərəkətə baxanda bəzi insanlarda tam da bunu görmək mümkündür. Güney Azərbaycan haqqında danışan, amma Güney Azərbaycan mövqeyindən düşünməyən çox sayıda insan var. Öz dərdinə öz adı ilə baxa bilməyən, öz siyasi ehtiyacını öz mərkəzindən qura bilməyən, hər dəfə başqa bir mərkəzin dilinə sığınan insanlar var. Onlar Güney Azərbaycanı yox, özgəni mərkəzə qoyurlar. Söhbət burada yalnız İran mərkəzli düşüncədən getmir. Bəzən Türkiyə, bəzən Azərbaycan Respublikası, bəzən Turan ideyası, bəzən də beynəlxalq çevrələrin dili Güney Azərbaycanın öz dilinin yerinə keçir. Nəticədə isə Güney Azərbaycan məqsəd olmaqdan çıxır və başqalarına vasitəyə çevrilir. Əsas məsələ də budur. Özünü qəbul etməyən hərəkat gec-tez özgəyə xidmət edər. Çünki öz mövqeyindən düşünməyən hər hansı siyasi bir xətt mütləq başqa bir mərkəzin orbitinə düşür. İnsanlar Güney Azərbaycan haqqında danışır, amma Güney Azərbaycan üçün danışmır. Güney Azərbaycanın adını çəkir, amma onun baxış bucağını qoruyub saxlaya bilmir. Bu isə hərəkatın daxilində parçalanma və özünə qarşı daimi şübhə yaradır. "Öz", siyasi başlanğıc nöqtəsidir. Bu baxış qurulmadan hərəkat hər dəfə başqa bir yerə axacaq. Bir gün İranın bütövlüyü naminə susacaq, bir gün Türkiyənin regional hesablarına uyğun danışacaq, başqa bir gün isə Azərbaycan



Respublikasının dövlət Azərbaycanın taleyindən üstün tutacaq. Türkçülük adına öz konkret coğrafi dərdini unudacaq. Güney Azərbaycanı mərkəzə qoyan siyasət öz toplumunun bütün parçalanmış vəziyyətini qəbul etməlidir. Çünki assimilyasiyaya məruz qalmış olan da bu toplumun içindədir, öz kimliyindən uzaq düşən də, daha sərt və radikal mövqe tutan da, daha ehtiyatlı danışan da! Fanonun göstərdiyi əsas həqiqətlərdən biri budur ki, istismar altında yaşayan toplum vahid və problemsiz bir bədən kimi qalmır. Parçalanır, özündən uzaqlaşır, bəzən özünə qarşı sərtləşir. Ona görə, Milli Hərəkətin vəzifəsi yalnız "doğru insanları" seçmək deyil. Milli Hərəkətin vəzifəsi, itirilmiş və dağılmış toplumu yenidən öz mərkəzinə çağırmaqdır.
Əvvəlcə özümüzü qəbul etmək lazımdır. Uğur yalnız o zaman mümkündür ki, Güney Azərbaycan özünü vasitə yox, məqsəd kimi qursun. (Son)

Güney Azərbaycanın siyasi məhbuslarını unutmayaq !!





İran İslam hakimiyyəti etirazları yatırmaq üçün vətəndaşını öldürməkdən çəkinmir.



Dey (Yanvar) Ayı Etirazları və Böyük Bir Savaşa Hazırlıq Projesi

Səməd Purmusəvi

İranda uzun vədəli istibdad, bahalıq və diktatorluqdan korluq çəkən millət zaman-zaman müəyyən səbəblərə görə —ümumən mərkəzdə iqtisadi problemlər və ictimai-siyasi azadlıqlar üçün, Güney Azərbaycanda isə etnik kimliyinin təhqirinə, Urmu gölünün qurudulmasına, yurdun sərvətlərinin talanmasına və hərtərəfli milli haqların pozulmasına qarşı— etirazlar ediblər. Hakimiyyət hər zaman bu etirazları eyni formada basdırıb, sonra durumu normala çevirmək üçün təhlükəsizlik planlarını asta-asta irəli sürübdür. Bu il (2026-cı il) yanvar ayının 7-sində mərkəz şəhərlərdə etirazlar yenidən baş qaldırdı. İlk başda bu etirazların nə üçün başladığını təxmin etmək mümkün deyildi. Dışarıdakı mərkəz müxalifət bu etirazları öncəki "Qadın, yaşam, azadlıq" ayaqlanmalarının davamı kimi alqıladı. Onlar onu dolların bahalaşmasına bağlayıb hakimiyyətə qarşı bu etirazları dəstəklədilər. Keçmiş şahın oğlu onu rejimin devrilməsi və şahlığın bərpasına bir dəstək olaraq açıqladı. İnsanları xiyabanlara çağırıb nə olduğu bəlli olmayan yardımların yolda olduğuna və gələcəyinə söz verdi. Bütün bunların nəticəsində etirazlar hakimiyyət tərəfindən faciəvi bir şəkildə basdırıldı. Təxminlərə əsasən dörd min nəfərdən qırx min nəfərə qədər insan öldürüldü.

Yanvar ayı etirazları hər cəhətdən öncəki etirazlardan fərqli idi. İnqilablarda öncül olmayan Gonabad şəhərindən başlayan ayaqlanmalar sürətlə daha böyük şəhərlərə yayıldı. Buna baxmayaraq Güney Azərbaycan milləti, demək olar ilk başdan bu ayaqlanmalara şübhəli yanaşıb səssiz qaldı. Bəzilərinə görə bu səssizlik keçmiş şahın oğlunun çağırışlarına qayıdırdı. Vaxtilə Pəhləvi hakimiyyəti Güney Azərbaycanın milli hökumətini təsxir edib minlərlə azərbaycanlını qətl etmişdi. Şah Azərbaycanda böyük cinayətlər törətmişdi. Bu zülmlər hələ-hələ millətin yaddaşından silinməmişdir. Azərbaycanın şah xanədanının bir daha dirçəlməsinə səs vermədiyi aşkar idi. Mərkəzçi qruplar isə səbəbləri axtarmadan bəzən təhqir dolu sözlərlə, bəzən yumuşaqcasına Güney Azərbaycanın səssizliyini məhkum etdilər. Bununla birlikdə "Qadın, yaşam, azadlıq" etirazında siyasi başarısızlıq sərgiləyib müxalifətin bölünməsinə səbəb olan şahın oğlu gündən-günə aktivləşib görünür oldu. Müxtəlif media kanalları onu demokrat bir lider kimi simvolizə edib fərqli formatlarda danışıqlarını, bəyaniyələrini yayımladılar. Hətta bir dəfəsində İran rəsmi televizionu hack olunub şahın danışığı səsləndirildi. Bu danışıqlarda şahın oğlu milləti hökumətə qarşı hər cürə saldırmağa çağırdı və hətta dövlət orqanlarının təsxirindən söz etdi. Kimsə şahın oğlunun birdən-birə bu qədər arxayınlıqla yeganə siyasi alternativ kimi üzə çıxmasının səbəbini sorğulamadı. Bu məsələ uzaqbaşı BBC və Iran International kanallarının etdiyi təbliğlərin sonucu kimi görüldü. Xaricdə yaşayan şahçılar bənzəri görülməmiş bir həyəcanla "Pəhləvi qayıdacaq, bu son savaşdır" şüarlarını səsləndirdi. İranlılar Quzey Amerika və Avropa şəhərlərinin xiyabanlarını fəth etdilər. Şahın oğlu o qədər güclü bir performans sərgilədi ki, şahçı olmayan mərkəz siyasi cərəyanlar və şəxslər bu gücün önündə ya susub haşiyəyə çəkildilər, ya da şahçı axınına qoşuldular. Bəzən keçmiş solçular, demokratlar ya da hakimiyyətdən qopmuş siyasi adamlar birdən şahçı oldular. İnsanlar şahın oğlunu İslam hakimiyyətinin əlindən qurtulmaq üçün son mənzil kimi dəyərləndirdilər. Medialar şahın oğlunu milləti ayaqlandıran, müvəqqəti olaraq keçid dövrünün otoritesini sağlayan və inqilabın yeganə lideri kimi tanıtdılar. Şaha və şahlığa müxalif olan mərkəz siyasi qüvvələr və qeyri-fars millətlərin siyasi quruluşları diskiniyib tələm-tələsik çarə axtarışı içində şahın önündə sürətlə bir cəbhə yaratmaq fikrinə düşdülər. Hakimiyyətin tezliklə yıxılacağına inanan siyasi fəallar gələcəyin necə qurulması gərəkdiyi barədə plan etdilər. Çevriliş qafiləsinə qoşulmaq bütün siyasi fəalların missiyasına çevrildi. Amma içəridə ayaqlanmalar genişləndikcə hakimiyyətin rəftarları normallıqdan uzaqlaşdı. Hakimiyyət açıq-aşkar hərəsan idi. Buna rəğmən qısa zaman içində polis, bəsic, sepah və müxtəlif təhlükəsizlik qüvvələrini xiyabanlara gətirib böyük cinayətlərə imza atdı. Hökumət üç gün içində etirazları kontrol altına aldı. İkinci və üçüncü gün etirazçılara qarşı ağır savaş silahları qullandı.

Dışarıya sızan bəzi xəbərlər dəhşət saçdı. Hökumət sürətlə ümumi interneti kəsdi. Müxalif media mənsubələri yazdı ki, hakimiyyət milləti rahatca səllaxlıq edə bilmək və cinayətlərini gizlətmək üçün interneti kəsib. Bəzilərinə görə hakimiyyət şahlıq sisteminin gələ biləcəyini ön görüb onu önləmək üçün bu cinayətləri törətmişdi. Amma sonralar məlum oldu ki, gerçəklik daha kompleksdir. Hökumət cinayətlərini gizlətmədi. Əksinə, hökumətə bağlı medialar professional kadrlarla yüzlərlə faciə dolu videolar yayımladı. Videolar bir tərəfdən məscidləri oda çəkən və ya polislərə əl-tapançası ilə atəş açan etirazçıları, bir tərəfdən də İran təhlükəsizlik qüvvələrinin etirazçılara qarşı törətdiyi qəddar vəhşilikləri göstərirdi. Səhnələr sürreal və acınacaqlı idi. Ölənlərin başına yaxın məsafədən güllələr sıxılmışdı. Güllələnmiş qalaq-qalaq cənazələrin arasında atalar sızıldayaraq balaların cəsədlərini axtarırdı. Anbara bənzər bir yerdə analar qara kisələr içində rəngi qaçmış uşaqlarının ölüsünü qucaqlayırdı. Videoların mesajı açıq idi: dışarıya çıxmayın! Başqa etirazları arxayınca planlı şəkildə yatırdan hökumət, bu dəfə bir şeydən qorxmuşdu. Faciə dolu səhnələri yayımlamaqla da vahşət yaratmaq istəyirdi. Bir neçə gün sonra İran prezidenti Pezeşkian televiziyondakı danışığında bu vəhşətin səbəbinə toxundu. Hökumət



etirazlarda xarici dövlətlərin eğitilmiş (təlim görmüş) təhlükəsizlik qüvvələrinin izini tapmışdı. Danışıqlarında həmişə yumuşaq və məqbul görünən Pezeşkianın kəlmələri, ləhni və rəftarı dəyişilmişdi. Önceki prezidentlər etirazçıları "çör-çöp", "bir ədəd aldınmış", "naaqah cəmiyyət" adlandırsa da, Pezeşkian onlara "terrorist" adı verdi. Əslində hökumətin törətdiyi bu cinayətin səbəbi İsraildən qorxu idi, şahın oğlundan deyil! Bəlli olan o idi ki, bu etirazlar dəqiq planlamalara dayanaraq orqanizə şəkildə baş tutmuşdu. Bu məsələ hökumətin ölkə təhlükəsizliyini qorumaqda nə qədər qüsurlu və yetənəksiz olduğunu göstərirdi. Ölkəyə qaçaq gətirilən silahları və eğitilmiş savaşçıları önləyə bilməyən sistem, öz vətəndaşlarını vəhşicə qətl etmişdi. Mossadın silahlı qüvvələri isə İranın təhlükəsizlik qüvvələrini öldürmüşdü. Pezeşkianın söylədiyinə görə bir tibbacısı diri-diri yandırılmışdı. Sonralar İsrailin bu etirazlardakı daxili müdaxiləsini müxtəlif xarici medialar və Mossad özü də təsdiqlədi. İran hakimiyyəti öz zənnincə İsrailə qarşı ən sərt təpkini vermişdi. Amma bir az sonra açıqlanan məsələlərə görə hakimiyyətin bu təpkisi İsrail projesinin bir parçası idi. Bunlara baxmayaraq şahçılar bütün hadisəni şaha bağladılar. Ayaqlanmanın adını İranın qədim bayrağından təsirlənərək "İnqilabi-şirü-xurşid" (Günəş və Aslan inqilabı) qoydular. Etirazlarda ölənlərə "cavidnam" (əbədilik qazanan), özlərinə "qvardiya cavidan" (elit mühafizə dəstəsi), şahın oğluna isə "cavid şah" (əbədi şah) dedilər. Qarşı tərəfdə mərkəz müxalifət şahın oğlunu bu ölümlərin məsulu kimi qınadı və bütün enerjisini şah və şahçılara reaksiya mahiyyətli işlərə sərf etdi. Amma sual budur: şahın oğlu özü də planın bir parçası deyilmi idi?

Savaşa məşruiyyət

İran İslam hakimiyyəti etirazları yatırmaq üçün vətəndaşını öldürməkdən çəkinmir. "Qadın, yaşam, azadlıq" və ondan öncəki hadisələr göstərir ki, İran hakimiyyəti etirazlara qarşı hər zaman bəlli bir taktikadan istifadə edir və bacardıqca "xüsunət" və "vəhşət"i qullanır! Hakimiyyət üçün basdırmanın formulu sadədir: ayaqlanmaları xüsunətə çəkir, sonra silah qullanır. Öldürməyə və vəhşət yaratmağa bəhanə tapa bilməyəndə planlı şəkildə vandalizm yaradır. Sonra vətəndaşlara, beytül-malı və şəhərin təhlükəsizliyini qorumaq naminə maksimum basqı uygulayır.

Sistem bilir ki, bir bəsic mənsubu döyüləndə, bir polis yaralananda və ya bir dövlət adamı öldürüləndə, hökumətin silah çəkib cinayət törədən təhlükəsizlik qüvvələri hüquqi olaraq qorunma altına girirlər. Bununla birlikdə törədilən dəhşətin sayəsində etirazlar ən qısa zaman içində susdurulur. Tam da bu səbəbdən dolayı İran hakimiyyəti dinc etirazı sevmir!

Yanvar ayındakı etirazın fərqi ondadır ki, bu dəfə hakimiyyətin qarşısında təlim görmüş silahlı qüvvələr də var idi. Bir tərəfdən də bu dəfə etirazın lideri öncədən bəllənmişdi. Bu nöqtələrdən yola çıxaraq, öncələr saxta vandalizm yaradıb əliyalın milləti öldürən hakimiyyət bu dəfə məhdud surətdə əli silahlılar ilə qarşılaşıb çaşdı. Şahın oğlunun səfərbərliyi və etirazların lideri kimi üzə çıxması da hökumətə ruhi basqını artırdı və nəticədə hökumət altından çıxa bilməyəcəyi bir cinayətə baş vurdu. Bu nöqtədə düşünməyimiz gərəkən önəmli bir mövzu var. etirazların baş qaldırmasına İsrail təhlükəsizlik orqanları yardım etmişdisə, hakimiyyət tərəfindən bu cinayətlərin baş verəcəyi də, möhtəmələn, təxmin edilmişdi. Demək etirazlardakı cinayətlərin özü bir məqsəd idi. Bu o deməkdir ki, hökumətin illərlə istifadə etdiyi taktika — maksimum xüsunət və basqı siyasəti — öz əleyhinə qullanıldı və demək olar ki, özünü güclü və müqtədir sanan İslam hökuməti tələyə düşdü.Hadisələrin gedişatı göstərdi ki, bütün məsələ İsrailin xeyrinə savaşa və saldırıya zəmin yaratmaq idi. Hökumətin yanvar ayındakı cinayətləri

Dövlətlərin öz hədəfləri üçün ayaqlanmaları qullanması yeni bir hadisə deyil. Bunun tarixdə örnəkləri vardır.



dünya millətlərini, xüsusilə İran diasporasının zehniyyətini İsrail və Amerikanın arxasında durmağa aparıb çıxartdı. Bu cinayətlər hökuməti savunulmaz, savaşı isə qaçınılmaz etdi və İrana saldırmaq üçün "məşru" bir bəhanə yaranmış oldu. Yoxsa dünyanın gözündə İsrailin son aylarda Fələstinə etdiklərindən sonra İrana saldıracaq qədər məşruiyyəti qalmamışdı. Bu məsələ on iki günlük savaşda özünü açıqca göstərmişdi. Bütün dünyada İran hakimiyyətinin zərərinə olan savaşa qarşı böyük etirazlar baş verdi. Bununla birlikdə İran hökumətindən qopan mühacirlər və hökumətin göndərdiyi adamlar Avropa və Amerika şəhərlərinin xiyabanlarında açıq-aşkar İsrailə qarşı şüarlar səsləndirdilər, Xamenei'nin şəkillərini dolaşdırdılar. Bu arada İsrail tərəfdarlarının qorxudan susduqları yerdə yalnız bir qrup açıq-aşkar İsrail bayrağını dolaşdırıb Fələstin və İranı savunan böyük kütlənin önündə İsraili savundular. Bu qrup iranlı şahçılar idi. Sonrakı olaylara baxanda şahçıların hərəkətləri də İsrail tərəfindən yetərincə dəyərləndirildi. Günümüzdə şahın oğlunun İranın gələcək lideri kimi dünyaya çıxardılması, ona müxtəlif yerlərdə tribuna ayarlanıb gücləndirilməsi İsrail tərəfindən ona və bu axıma verilən imkanlardır.

Sonuc

Minlərlə bilgi və xəbər içində itib-batan yanvar ayı etirazlarının qaynağı haqqında, xüsusilə Mossadın etirafı, gözdən qaçan açar məsələdir. Bu məsələ İran müxalifəti və hətta Qərb mediasında yetərincə dartışılmadı. Halbuki, xüsusilə bu etirazları doğru analiz etmək açısından bu etirafı ələ almaq və analiz etmək önəmli idi. Çünki hamımız ortaqlaşa bilirik ki, hökumətə qarşı hər cürə etiraz haqlıdır. Bu haqlılığa vaqif olmaqla birlikdə diqqət yetirməmiz gərəkən bir etiraf var və İsrailin təhlükəsizlik orqanından yayılan bu etirafın tək anlamı budur: Yanvar ayı etirazları təhlükəsizlik yönümlü bir layihə idi! Bu da o deməkdir ki, savaşın arxa planındakı məsələlər görünəndən çox daha fərqlidir. Məsələ Amerika və İsrailin müzakirə masalarında nail ola bilmədikləri hədəflərdir. Məsələ savaşa hazırlıqdır. Məsələ rejimi dəyişmək deyil, keçmiş şahın oğlunun hakimiyyətə gəlməsi deyil, İran millətinin azadlığı da deyil. Əsl məsələ İran tərəfindən İsrailə qarşı "egzistensial" (varoluşsal) təhdidin önlənməsidir, Amerikanın bölgədəki enerji kontrolunu ələ keçirmə məsələsidir. Etirazlar və keçmiş şahın oğlunun lider kimi qaldırılması İran hakimiyyətinə basqı uyğulamaq ya da ortalığı bulandırıb ümumi zehniyyəti və müxalifəti kontrol və idarə etmək üçündür. Yəni bu savaş, birincisi hədəfli propaganda vasitəsilə, ikincisi isə mahiyyətcə diktator olan hakimiyyətin ibtidailiyi və zorakılıqdan başqa bir yol tanımaması vasitəsilə planlanıb tətbiq olundu. Bu məsələ etiraza çıxanların, işgəncə edilənlərin, canlarını itirənlərin və diktatorluğa qarşı mübarizələrin haqsız və etibarsız olduğu anlamına gəlmir. Məsələ bir ölkə hakimiyyətinin kifayətsizliyindən dolayı özünü və millətini qoruya bilməyib üstəlik cinayət edə bilməsi, "pupet" bir şahın oğlunun şirin sözlərinə inanan cəmiyyətin qullanılması, millətin və müxalifətin düzənli bir plan əsasında nə qədər rahatca kontrol edilə bilməsi və onun faciəvi nəticələridir. Bir tərəfdən də bu hadisələr göstərir ki, dünyadakı təhlükəsizlik orqanları sadəcə saxta və quraşdırma səbəblər deyil, hətta ən doğru istəkləri və haqlı milləti belə öz çıxarları və hədəfləri üçün kullanabilir. İsrail yanvar ayında İran İslam Respublikasının qəddar bir hakimiyyət olmasını, ölkənin iqtisadi, siyasi və baş alıb gedən minlərlə başqa problemlərini, eləcə də insanların acı çəkib zülm görməsini öz projesini həyata keçirmək üçün qullandı. Nəticədə ayaqlananların canları və qanları da kullanıldı.

Dövlətlərin öz hədəfləri üçün ayaqlanmaları qullanması yeni bir hadisə deyil. Bunun tarixdə örnəkləri vardır. Məsələn, Məşrutə dövrü Tütün inqilabında və Müsəddiq hökumətinə qarşı bənzər ayaqlanmaları görmək mümkündür. Fərq ondadır ki, Tütün inqilabı və Müsəddiq hadisələrindəki müdaxilənin qaynağı hadisədən əlli il keçdikdən sonra açıqlanmışdı, amma bu dəfə əlli il gözləməyə ehtiyac qalmadı. (Son)